# YAP-ın "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirləri davam edir






"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən tədbirlər planına uyğun olaraq silsilə tədbirlər həyata keçirilir.

Tədbirlər planı çərçivəsində aprelin 5-də partiyanın Zaqatala və Füzuli rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Zaqatala rayonunda YAP Zaqatala Rayon Təşkilatının sədri Habil Qurbanov, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, YAP İdarə Heyətinin üzvü Bayram Aslanov, Milli Məclisin deputatı Kamilə Əliyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Füzuli rayonunda YAP Füzuli Rayon Təşkilatının sədri Almaz Həşimova, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin deputatları Vüqar Bayramov, Aqil Abbas və başqaları çıxış ediblər. Çıxışlarda Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən və əbədiyaşar ideyalarından, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edilib. Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

Aprelin 5-də partiyanın Səbail Rayon Təşkilatında Veteranlar Şurasının üzvləri ilə gənclərin görüşü keçirilib. Görüşdə YAP Səbail Rayon Təşkilatının sədri Muxtar Nağıyev, YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə, kinorejissor, ssenarist, Xalq artisti Vaqif Mustafayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru tarix elmləri doktoru, professor Cəfər Cəfərov çıxış ediblər. Sonda gənclərin çoxsaylı sualları cavablandırılıb.

Bundan başqa, tədbirlər planına uyğun olaraq aprelin 5-də YAP Oğuz Rayon Təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Şəki Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 aprel.- S.7.